*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 mart 2018-ci il № 18 (2234) Qiymətı 25 qəpik


## Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşları artırılıb

Prezident İlham Əliyev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılır.

## Azərbaycan Prezidenti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı Sərəncam imzalayıb

Prezident İlham Əliyev martın 6-da Azərbaycan vətəndaşlarının 2018-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, 2000-ci ildə doğulmuş və çağırış günündək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1983-1999-cu illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları 2018-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

Həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2018-ci il aprelin 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

# 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə Azərbaycan qadınlarına təbrik



Hörmətli xanımlar!

Sizi, bütün Azərbaycan qadınlarını 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə ürəkdən təbrik edirəm. Hər birinizə cansağlığı, səadət və işlərinizdə nailiyyətlər arzulayıram.

Sivilizasiyaların qovuşuğunda özünün misilsiz mədəni-mənəvi sərvətlər xəzinəsini yaratmış xalqımızın bu çoxəsrlik zəngin irsinin yaşadılmasında, milli düşüncəmizin parlaq ifadəçisinə çevrilmiş dilimizin saflığının qorunub saxlanılmasında analarımızın müstəsna xidmətləri vardır. Ədəbiyyatımızda daim gözəlliyin və zərifliyin mücəssəməsi, sədaqətin və ülviliyin rəmzi kimi vəsf olunan dərin mənəviyyatlı Azərbaycan qadını, həmçinin güclü iradəsi, vətənpərvərliyi və fədakarlığı ilə seçilərək yurdun mübarizə salnaməsində silinməz izlər qoymuşdur. Keçmişimizin mürəkkəb sosial-siyasi dəyişikliklərə məruz qaldığı müəyyən dövrlərdə o, həmişə təmkinlilik nümayiş etdirməklə cəmiyyətin sarsılmaz mənəvi dayağı olduğunu sübuta yetirmişdir.

Yüzüncü ildönümünü təntənə ilə qeyd etməyə hazırlaşdığımız Azərbaycan Xalq Cümhuriyyətinin Şərq aləmində ilk dəfə qadınlara seçmək və seçilmək hüququ verməsi məhz ictimai-siyasi fikir və mədəniyyət tariximizin görkəmli simalarının cəmiyyətin ahəngdar inkişafında, taleyüklü məsələlərin ədalətli həllində qadınların fəaliyyətini layiqincə qiymətləndirmələrinin nəticəsidir. Ötən müddət ərzində Azərbaycan xanımları maarifpərvər sələflərinin ənənələrini şərəf və ehtiramla davam etdirmiş, müasirləşmə yolunda çoxsaylı müvəffəqiyyətlər qazanmış və müstəqillik naminə ümumxalq hərəkatının ön sıralarında olmuşlar.

Dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsinə və ölkəmizin hərtərəfli yüksəlişinin təmin olunmasına yönəlmiş yaradıcı potensialınızı siz bu gün də uğurla gerçəkləşdirməkdəsiniz. Dinamik sosial-mədəni həyatımızın fəal iştirakçıları olaraq sizin milliliklə müasirliyin vəhdətində indiki yüksək nüfuzunuz və ictimai mövqeyinizlə fəxr edə bilərik. Əminəm ki, müqəddəs ailə dəyərlərimizin toxunulmazlığı keşiyində dayanmaqla bərabər, gənc nəslin doğma yurdumuza və milli ideallarımıza bağlılıq ruhunda tərbiyəsi üçün bundan sonra da qüvvənizi əsirgəməyəcək, ictimai-mənəvi mühitimizin davamlı zənginləşməsinə yeni-yeni töhfələr verəcəksiniz.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2018-ci il.

## "Azərbaycan Almaniya üçün Qafqazda ən mühüm iqtisadi tərəfdaşdır"

Bundestaqın deputatı Mark Hauptman (CDU-Xristian Demokratlar İttifaqı) Azərbaycan səfirliyi və Alman-Atlantika Cəmiyyəti tərəfindən dəvət olunduğu Cənubi Qafqazda stabillik və təhlükəsizlik məsələlərinə həsr olunmuş 6-cı simpoziumda çıxış edib.

AZƏRTAC xəbər verir ki, Ermənistanın işğal etdiyi Dağlıq Qarabağ regionundakı vəziyyəti xatırladan azərbaycanlı nümayəndələr Almaniyanın bu münaqişənin sülh yolu ilə həllinə cəhdlər göstərməsindən məmnunluqlarını ifadə ediblər.

Mark Hauptman deyib: "Dağlıq Qarabağ münaqişəsi ilə daha yaxından məşğul olsaq yaxşı olardı. Belə ki, bu münaqişə nəinki çoxsaylı insan itkisi və qeyri-stabilliyə səbəb olur, eləcə də regionun iqtisadi inkişafını ləngidir".

Simpoziumda təhlükəsizlik məsələləri ilə yanaşı, iki ölkə arasındakı iqtisadi münasibətlər də müzakirə mövzusu olub. Vurğulanıb ki, Azərbaycan Almaniya üçün Qafqazda vaz keçilməz və ən mühüm iqtisadi tərəfdaşdır. Enerji sahəsindəki vacib əməkdaşlıqdan əlavə, müxtəlif infrastruktur layihələrinin həyata keçirilməsi sahəsində də geniş potensial mövcuddur.

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri ön xətt bölmələrində olub



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhə bölgəsində yerləşən ön xətt bölmələrində olublar.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə hərbi hissənin ərazisində ucaldılan ümummilli liderimiz Heydər Əliyevin abidəsi ziyarət edilərək gül dəstələri qoyulub.

Sonra Müdafiə naziri müdafiənin ön xəttindəki bölmələrdə olaraq üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib. Əməliyyat şəraiti ilə tanış olan general-polkovnik Zakir Həsənov birləşmələrin və hərbi hissələrin döyüşə hazırlıq vəziyyətini yoxlayıb.

Müdafiə Nazirliyinin rəhbərliyi qoşunların döyüş qabiliyyətini, maddi-texniki təminatını, silah-sursat və hərbi texnika ilə təchizatını, həmçinin şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib.



Hərbi qulluqçular Müdafiə nazirinə müraciətdə işğal altında olan torpaqlarımızın tezliklə azad edilməsinə hazır olduqlarını bildiriblər.

# 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Əziz xanımlar!

Sizi 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edir və ən xoş arzularımı bildirirəm.

Azərbaycan qadını tarix boyu müqəddəs ana şərəfini uca tutaraq öz mübarizliyi ilə tanınmış, qadınlarımız ölkənin ictimai-siyasi, mədəni həyatında fəal iştirak etmiş, Vətənin müdafiəsində və dövlətin idarə olunmasında daim fədakarlıq nümayiş etdirməklə yanaşı döyüş meydanlarında da şücaət göstərmişdir.

100 illiyini qeyd etməyə hazırlaşdığımız Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri ilə qadınlara seçmək və seçilmək hüququ verməsi cəmiyyətimizdə qadınlara xüsusi hörmət və ehtiramın mövcudluğunu nümayiş etdirmişdir.

Dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, ölkəmizin sosial-iqtisadi və mədəni potensialının artırılması üçün dəyərli töhfələr vermişdir. Qadınlar doğma torpaqlarımızın bir qisminin işğal altında olduğu bir dövrdə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması və onların xalqa, cəmiyyətə layiqli övlad kimi yetişməsi naminə üzərinə düşən ağır yükü şərəflə daşıyırlar.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə milli maraqlarımıza xidmət edən və ənənələrimizi yaşadan çoxlu sayda böyük layihələrin uğurla icra olunması Azərbaycan qadınının mərhəmət və xeyirxahlığının, zəngin mənəvi-intellektual və yüksək əxlaqi dəyərlərə malik olduğunun bariz nümunəsidir. Qadınlarımızın aktiv fəaliyyəti həyatın bütün sahələrində olduğu kimi, ordu quruculuğundakı xidmətləri də şərəf və qürur mənbəyidir.

Hazırda Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə yüzlərlə qadın xidmət edir, Vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirirlər. Mülki işlərdə çalışan qadınlarımızın da əməyi yüksək qiymətləndirilir.

Torpaqlarımızın müdafiəsi zamanı şəhid olmuş qadınlarımızın əziz xatirəsini ehtiramla yad edir, bütün şəhid analarına və xanımlarına, döyüşlərdə sağlamlığını itirən hərbi qulluqçuların ömür-gün yoldaşlarına, Vətənimiz üçün layiqli övladlar böyüdən əsgər analarına bayram təbriklərimi çatdırır, yüksək hörmət və ehtiramımı ifadə edirəm.

İnanıram ki, bütün qadınlar kimi, ordu quruculuğunda xidmət edən və çalışan ana və bacılarımız bundan sonra da ölkə rəhbərliyinin etimadını doğruldacaq, göstərilən diqqət və qayğıya cavab olaraq Vətənə, xalqa, dövlətə sədaqət nümayiş etdirəcəklər.

Bayramınızı bir daha təbrik edirəm, əziz xanımlar!

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

# Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində dəyirmi masa keçirilib

*Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Azərbaycan Ordusu və milli-mənəvi dəyərlərimiz" mövzusunda dəyirmi masa keçirilib.*



Şəxsi Heyət Baş İdarəsinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev tədbirdə çıxış edərək ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığından, eləcə də azərbaycançılıq ideologiyasına, dövlətə və dövlətçiliyə sədaqətindən danışaraq hər bir hərbi qulluqçunun Vətəni şücaətlə qoruduğunu bildirib.

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani milli-mənəvi dəyərlərimizin mənəvi-psixoloji hazırlıqda başlıca mənbə olduğunu vurğulayıb.

Çıxış edənlər milli-mənəvi dəyərlərin təbliği ilə bağlı şəxsi heyətin daha geniş məlumatlandırılması yollarından danışıb, Azərbaycan Respublikası Prezidentinin hərbi qulluqçuların vəzifə maaşlarının artırılması sərəncamının mühüm əhəmiyyət kəsb etdiyini, bunun dövlətimizin diqqət və qayğısının təzahürü olduğunu qeyd ediblər.

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistana məxsus növbəti taktiki PUA zərərsizləşdirilib

Martın 3-ü günorta saatlarında cəbhənin Ağdam istiqamətində mövqelərimiz üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus "X-55" taktiki pilotsuz uçuş aparatı (PUA) Hərbi Hava Qüvvələrimizin bölmələri tərəfindən növbəti dəfə zərərsizləşdirilib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***7 mart 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 93 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Vazaşen kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Quşçu Ayrım, Bala Cəfərli kəndlərində, Berd rayonunun Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Baş Qərvənd, Cəvahirli, Abdinli, Qaraqaşlı, Kəngərli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 7-də Füzuli rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

# Bu ruhun zərrəsi olmaq da səadətdi, Vətən!..

## Cəbhə bölgəsində "N" hərbi hissəsinin yaradılmasının 26 illiyi qeyd edildi

*Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsinin yaradılmasının 26-cı ildönümü münasibətilə təntənəli tədbir keçirildi.*



Müdafiə Nazirliyinin rəsmi nümayəndələrinin, Tərtər rayon İcra Hakimiyyətinin, hərbi hissənin keçmiş döyüşçülərinin, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirdə əvvəlcə respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndi.

Tədbirdə çıxış edən zabit Anar Cavadov hərbi hissənin yaranma tarixi, keçdiyi şanlı döyüş yolu haqqında məlumat verərək bildirdi ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə formalaşan hərbi hissə 1992-ci il martın 3-də yaradılıb. Hərbi hissə yaradıldığı ilk günlərdən qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlib, döyüş tapşırıqlarını uğurla yerinə yetirərək, Ağdam, Tərtər, Ağdərə istiqamətlərində gedən döyüşlərdə iştirak edib. Hərbi hissənin şəxsi heyəti torpaqlarımızın qorunması və ərazi bütövlüyü uğrunda yüksək fədakarlıq göstərib. 8 hərbi qulluqçu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun təbrik məktubları tədbir iştirakçılarına çatdırıldı.



General-mayor Hikmət Həsənov çıxışında qeyd etdi ki, hərbi hissə uğurlu döyüş əməliyyatları keçirib. "Bir vaxtlar imkanları məhdud olan, yararsız şəraitdə fəaliyyət göstərən hərbi hissədə bu gün müasir tikinti-quruculuq işləri aparılıb, şəxsi heyətin xidməti vəzifələrini layiqincə yerinə yetirməsi üçün hərtərəfli şərait yaradılıb. Hazırda Azərbaycan Ordusunun nəzarətində olan Ağcakənd, Şıxarx, Qızıloba və digər ərazilər bu hərbi hissənin apardığı uğurlu əməliyyatlar nəticəsində düşməndən azad edilib. Hərbi hissənin şəxsi heyəti qarşıya qoyulan döyüş tapşırıqlarını yerinə yetirməyə daim hazırdır.

Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov şəxsi heyəti hərbi hissənin yaradılmasının 26-cı ildönümü münasibətilə təbrik etdi, xidmətlərində uğurlar arzuladı. Bildirdi ki, ulu öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində gördüyü işlər bu gün uğurla davam etdirilir. "Silahlı Qüvvələrə göstərilən diqqət və qayğı nəticəsində Azərbaycan Ordusu torpaqlarımızın müdafiəsində qəhrəmanlıqla dayanaraq döyüş qabiliyyətini və mənəvi-psixoloji hazırlıq səviyyəsini daim artırır. Ordumuzun müasir hərbi texnika və silah-sursatla təminatı yaxşılaşdırılır. 2016-cı ilin aprel döyüşləri Azərbaycan Ordusunun işğal altındakı torpaqlarımızı düşməndən təmizləmək iqtidarında olduğunu bir daha nümayiş etdirdi. Mən bütün tərtərlilər adından hərbi qulluqçularımıza, bu hərbi hissənin əsgər və zabitlərinə minnətdarlığımı bildirirəm. Onlar torpaqlarımızı mərdliklə qoruyur, əhali öz məşğulluğunu təhlükəsiz yerinə yetirir."

Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Abdulla Qurbani ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Tərtərə səfərlərindən, hərbi hissələrdə əsgərlərlə görüşlərindən, Azərbaycan Silahlı Qüvvələrinin son illərdəki nailiyyətlərindən, erməni işğalçılarının cəbhədə törətdiyi təxribatlara ordumuzun layiqli cavab verməsindən, xalqla ordunun monolit birliyindən danışdı.

Hərbi hissənin zabiti Teymur Məmmədov və sabiq Tərtər özünümüdafiə taborunun komandiri olmuş ehtiyatda olan mayor Pənah Məmmədov çıxışlarında hərbi hissənin keçdiyi döyüş yolundan bəhs etdi, hərbi qulluqçuların, eləcə də müharibə veteranlarının işğal altındakı torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın əmrinə hər an hazır olduqlarını bildirdilər.

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin bədii proqramı ilə yekunlaşdı.

* * *

Hələ qışdı...

Sovruq dağda-daşda çuxurlara qar qalaqlasa da, mövqelərə aparan yollarda gediş-gəliş nisbətən çətinləşsə də, torpağın qaysaqlamayan irili-xırdalı yaraları insafsızcasına gizildəsə də, könüllər yaz ovqatlıdı; qışda yaz havası könülləri telləndirməkdədi. 2016-cı ilin apreli - Böyük Qələbənin başlanğıcı bildiyimiz aprel döyüşləri xatırlanır...

Təbiətdə qışdı, könüllərdə yaz. Vətən sevgisinə Vətən dediyimiz əsgərlərin əhatəsində "N" hərbi hissəsinin yaranma günü böyük coşquyla qeyd edilib. Tədbirin davamı kimi Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, şair-publisist Abdulla Qurbaninin "Qəhrəman Tərtərin müdafiəsində" kitabının təqdimatıdı. Tərtərin tarixindən də, etnoqrafiyasından da vizual məlumat verən bu kitab hərbi hissənin keçdiyi döyüş yoluna, qazandığı qələbələrə söz güzgüsüdü.

İctimaiyyətin nümayəndələri, məktəblilər - yeniyetmələr, uşaqlar, zamanında Tərtəri qoruyanlar - veteranlar, analar-atalar kiçik həcmli oçerklər kitabının - tarixin kitabının, tarixi kitabın söz işığına könül açıb. Bu işıq vətənpərvərlik işığıdı. Mahiyyəti Vətəndirsə, qayəsi Vətəndirsə, hamını bir daha Vətənə, torpağa kökləyirsə, belə dəyərləndirilməlidi...

Baxışlarda Tərtər sevgisi - Vətən sevgisi çırpınmaqdadı. Kitabın böyük sevgilərlə təqdimatı da, böyük sevgilərlə təqdimatı da tərtərli Azərbaycanın Milli Qəhrəmanlarının, döyüşlərdə şəhid olanların ruhunun narahatlığını bir duyum qədərincə yumşaltmaqdadı; "Qəhrəman Tərtərin müdafiəsində" möhtəşəm əsərdi, tədbir möhtəşəm əsərə həsr olunmuş bitkin, məzmunlu əsər təsirindədi.

Bir az əvvəl Tərtərin dünənindən söz açılmışdı.

Aparıcı - kitabın müəllifi Abdulla Qurbani Tərtərin 80-ci illəri haqqında yazdıqlarından danışır. Yaşı 70-i haqlayan bir ağsaqqalın piçıltısını sağında-solunda dayananlar da eşidir, mən də eşidirəm: "Heydər Əliyevin hər gəlişi Tərtərin güzəranını yaxşılaşdırırdı..."...

Abdulla Qurbani Tərtərin 90-cı illərindən danışır.

Veteranların baxışlarında çırpınan, uçunduqca uçunan qəhərin ovunacağı anların intizarındaykən yeniyetmələrin düyünlənən yumruqlarını görürəm. "Qoruyublar, qoruyurlar, qoruyacağıq!" - inamın səsidi, qətiyyətin, yerə-göyə sığışmayan sevginin səsidi - şəhidlərimizin yaşarı ruhlarının səsidi...

Əli hərbi səhra geyimli 7-8 yaşlı nəvəsinin əlində isinən orta yaşlı kişinin baxışlarını bürüyən mətləbin dumanlığını necə görməyə bilərdik? - bir azdan öyrənəcəm ki, Niyazi Qurbanovdu, ehtiyatda olan leytenantdı, 1994-cü ilin yanvarında Ağdərə uğrunda gedən döyüşlərdə ağır yaralanıb, yerişini itirib. Tədbirə nəvəsiylə gəlib.

Baba nizami sırayla düzülmüş əsgərlərimizə baxır, Şamil - babasına. Baba nə düşünür? - məlum, nəvə nə düşünür, görəsən? - "Böyüyəndə mən də əsgər olacam!" - deyir Şamil. "Vəzir olacam, Pənah olacam, Fəğan, İmayət, Nizami olacam!"...

Niyazi Qurbanovun yanğıyla, qədərsiz istəklərlə dediklərini hamı eşidir: "Dəyərli kitabdı. Sülh danışıqları baş tutmasa, yaxın vaxtlarda tərtərlilərin də iştirak edəcəyi döyüşlərdən, qazanılacaq qələbələrdən yazılacaq kitabı görməsəm, ölümə can verməram!" - Azərbaycan əsgəri döyüşlərdə yerişini itirmiş ehtiyatda olan leytenantın istəyini yaxın vaxtlarda gerçəkləşdirəcək...



Bir qədər əvvəl hərbi hissənin komandiri olmuş ehtiyatda olan mayor Pənah Məmmədovun dediklərini xatırlayıram: "...Qarabağsız ölə bilmərəm. Kaş əzizlərim ölüm xəbərimi Qarabağ uğrunda gedəcək döyüşlərdə eşidəydi...". Veteranların hamısının torpaqlarımızı işğaldan azad edilməsi amalıyla yaşadığına inanırıq; Pənahın kəlmələri meydanı lənqərləndirir...

Aparıcı Tərtərin 2000-ci illərindən danışır. Əlləri nəvəsinin çiyninə enən kişinin dediklərini tərtərlilərin ürək sözü bilirəm: "İlham Əliyevin hər gəlişi Tərtəri ayrı biçim gözəlləşdirir". İki-üç addımlıqda dayanmış ağsaqqal inamla dillənir: "Elədi..."...

Aparıcı hərbi hissənin yaranmasından, formalaşmasından, döyüşlərindən, qələbələrindən danışır.

Vəzir Orucovu tanıyırdım, Elman Hüseynovu tanıyırdım, Kazımağa Kazımovu tanıyırdım, Pənahı, Nizamini, İmayəti, Fəğanı, Suliddini tanıyıram. Aparıcı onları tərtərlilərə daha böyük ehtiramlarla tanıtdıqca Ağdərə uğrunda gedən döyüşləri, döyüşənləri xatırlayıram. Düşüncələrimdə başaçılmaz yellər əsir. 1993-cü illərdə Tərtərə sarı əsən yellərin çılğınlığını aydınlığıyla görmüşdüm. Marağanı, Ağdərəni erməniszləşdirənlərin əllərindən öpmək istəmişdim - qoymamışdılar. Döyüşənlərin dediklərini şeirləşdirmişdim:

Sənə xidmət edirik...  
Hər daşın səngərdi bizə,  
İli ömür eləmək Vətənə  
xidmətdi, Vətən!  
Belə bir sevgi mənim  
ruhumun can ortağıdı,  
Bu ruhun zərrəsi olmaq da  
səadətdi, Vətən!...

Zabitlər də, əsgərlər də son misranın cazibəsinə düşmüşdü: bu ruhun zərrəsi olmaq da səadətdi, Vətən! Eyni ovqatı bugünkü tədbirin iştirakçısı olan əsgərlərimizin də yaşadığını hiss etmək çətin deyil: İli ömür eləmək Vətənə xidmətdi, Vətən!..

Tədbirə gələnlərin arxasında dayanmış əsgərlərə baxıram; bu düzülüş həyatı, yaşarı rəmzdi - ordu xalqı, torpağı - Vətəni qoruyur. Əsgərlərin baxışlarında dönməzlik var, Vəzirləşmək, Fəğanlaşmaq, Nizamiləşmək, Pənahlaşmaq,... Mübarizləşmək, Samidləşmək, Çingizləşmək istəyi var, niyyəti var. O baxışlar Vətən sevgisinin zərrələridi, bu zərrələrin vəhdəti - Qələbə ovqatı...

Aparıcı Azərbaycan Ordusundan, son illər həyata keçirilən irimiqyaslı islahatlardan danışır, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qürurla dediyi bir kəlamı xatırladır: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır". Bu xatırlatma sıra meydanını dalğalandırır. Bu dalğalanma dövlətə, dövlətçiliyə sədaqət kimi yaşanılır. Belə duyğusal anların cazibəsindəykən bir qədər aralıdan gələn səsə boylanıram:

- Mən xidmət etdiyim illərdəki şərait hara, indiki şərait hara. Oğlum əsgərdi. Xidmət etdiyi hərbi hissədə "Açıq qapı" günündə də olmuşam, and içməsində də. Ali Baş Komandanın, Müdafiə nazirinin orduya qayğısını mən də görmüşəm, ürəyim dağa dönüb. Varlığımla inanmışam ki, ordumuz torpaqlarımızı işğaldan azad edəcək...

**(Ardı 6-cı səhifədə)**

# Bayramınız mübarək, əziz qadınlarımız!


Mayor
Günel Abbasova

*8 Mart - Beynəlxalq Qadınlar Günüdür. Həyatımızda öz yeri, əhəmiyyəti olan günlərdən biri. Analarımızı, bacılarımızı, bir sözlə, xanımlarımızı ən xoş arzularla təbrik etdiyimiz gündü 8 Mart.*

*Cəmiyyətimizdə qadınların öz yeri var. Azərbaycan qadını tarix boyu ailəyə bağlılığı, xoş rəftarı, səmimiyyəti ilə tanınıb. Bizim qadınlar ən çətin, dar günlərdə də ömür-gün yoldaşlarına, sözün həqiqi mənasında, ən yaxın dost və sirdaş olublar. Cəmiyyətimizin bütün sahələrində qadınlar indi də öz fəallığı ilə seçilir, vəzifələrinin öhdəsindən bacarıqla gəlirlər. Dövlətimizin diqqət və qayğısı sayəsində cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirak edən qadınlarımızın Azərbaycan cəmiyyətində rolu böyükdür. Vətənpərvərlik ali duyğusu insanı zirvələrə, səmalara yüksəldir, ona qəhrəmanlıq, fədakarlıq, məğlubedilməzlik, torpağa, xalqa, dövlətə sevgi, hədəflərə inam aşılayır. Hərbçi qadınlarımızı bu peşəyə məhz bu ali, bu müqəddəs duyğular gətirib. Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı hərbi təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə yüzlərlə qadın xidmət edir. Vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirirlər. Onların hərbi xidmətə nümunəvi münasibəti təqdirəlayiqdir. Qadın hərbi qulluqçularımız, mülki vəzifələrdə işləyən qadınlar da torpaqlarımızın işğaldan azad ediləcəyi günün intizarındadı. Arzu edirik ki, gələn 8 Mart - Beynəlxalq Qadınlar Günündə qəzetimizdə dərc edəcəyimiz məqalələri işğaldan azad edilən torpaqlarımızda xidmət edəcək əsgər və zabitlərimizin təbriki ilə tamamlayaq!*


Əzəmət Qəhrəmanova

Mayor Günel Abbasova Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini 2004-cü ildə bitirib. Təlim və Tədris Mərkəzində ixtisaslaşma kursu keçib.

Günel xanım bildirdi ki, III qrupa hazırlaşırdım. "Fransız dili üzrə keçirilən olimpiadada respublika üzrə ilk yerlərdən birinə layiq görülmüşdüm. Milli Qəhrəman Şikar Şikarovun Vətən sevgisi haqqında


Vəsilə Adıgözəlova

oxuduqlarım qəbul imtahanlarına 3 ay qalmış ixtisas seçimimi dəyişməyimə səbəb oldu. 550 balla hərbi məktəbə qəbul oldum."

Azərbaycan qadını öz dövlətini, xalqını bütün dünyada layiqincə təmsil etməyə qadirdir. İngiltərədə, Türkiyədə keçirilən konfranslarda Vətənimizi layiqincə təmsil edən mayor Günel Abbasova deyir ki, dünyaya ikinci dəfə yox, 100-cü dəfə də gəlsəydim, yenə hərbçi peşəsini seçərdim...

Dövlət müstəqilliyimizin bərpasından sonra qadınlarımız da dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmişdilər. Vəsilə Adıgözəlova Vətənimizin başının üstünü qara buludlar alanda Bakı Baş Tikinti İdarəsinin Layihə İnstitutunda işləyirdi. Ordumuzun yenicə yarandığı illərdə Vətən sevgisi onu da hərbiyə gətirib. 1993-cü ildən 2010-cu ilə qədər gizir kimi xidmət edən, 3 ay döyüş bölgəsinə ezam olunan Vəsilə xanım hərb sənətini seçməsiylə qürur duyur. Bu gün təqaüddə olan gizir dövlət qulluğunda çalışır. Oğlunun müqəddəs Vətən borcunu yerinə yetirməsindən sevinclə, fəxrlə danışaraq qeyd etdi ki, ürəyi Vətən eşqi ilə döyünən hər bir azərbaycanlının bir arzusu, bir məqsədi var: torpaqlarımızı işğaldan azad etmək.

Tamilla Əliyeva 14 il baş əsgər kimi xidmət edib. Təqaüdə çıxsa da, doğma kollektivindən ayrılmayıb. 2010-cu ildən dövlət qulluğunda çalışan Tamilla xanım nümunəvi xidmətinə görə xidmət müddətində rəhbərlik tərəfindən fəxri fərmanlarla, qiymətli hədiyyələrlə mükafatlanmasıyla qürurlanır. "Torpaqlarımızın işğalda olması mənim də ürəyimi sızladır. Xidmətdə olduğum illər ərzində dövlətimizin orduya diqqət və qayğısının, ordumuzda aparılan uğurlu islahatların səmərəli nəticə verdiyinin, necə gücləndiyinin şahidiyəm. Yaxın gələcəkdə ordumuzun bizləri qələbə xəbəri ilə müjdələyəcəyinə inanıram".

Hər bir hərəkətindən, kəlməsindən hiss olunur peşəsinə sevgisi, Vətənimizə bağlılığı. Xuraman Kərimovanın gözlərinin dərinliyində bir nisgil var. Kəlbəcərdə ziyalı ailəsində dünyaya göz açan Xu-


Tamilla Əliyeva

raman xanım hər gün, hər saat ata-baba ocaqlarına qayıdacaqları günün həsrəti ilə yaşayır. Aprel döyüşlərindən sonra bu istəyinin reallaşacağına inamı daha da güclənib. Düşmən doğma yurd-yuvalarına göz dikəndə qardaşları Ülfət, Zöhrab və Zahid də Və-


Xuraman Kərimova

tənini canından əziz bilən oğulların sırasındaydılar. 1991-ci ildə Xuraman xanım Kəlbəcər xəstəxanasında tibb bacısı kimi könüllü olaraq xidmətə başladı. Doğma rayonları uğrunda gedən döyüşlərdə Ülfət qəhrəmancasına şəhid olub, Zöhrab və Zahid yaralanıblar. Qaçqınlıq həyatı, əzizlərinin şəhid olması Xuraman xanımın həyatını yenidən bu sahə ilə bağlamasına səbəb olub. 2010-cu ilədək baş gizir kimi xidmət edən, bu gün dövlət qulluğunda çalışan Xuraman xanım "Qardaşım Ülfət şəhid olduqdan sonra məni yaşadan hərbi xidmət oldu", - deyir.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Aydan Səfərəliyeva İqtisad Universitetinin nəzdində Azərbaycan Dövlət Maliyyə İqtisad Kollecini bitirib. Aydan xanım deyir ki, atam Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində müəllimdir. "Ailəmizdə söhbətlərin başlıca mövzusu Vətən, torpaq olardı. Vətən sevgisi insanın qəlbinə hakim kəsilən bir ümmandır".

Ürəyindəki o sevgiylə bu sahəyə üz tutub. Təlim və Tədris Mərkəzində kurs keçərək arzusuna çatıb. Aydan xanım qaynar xəttə daxil olan zəngləri cavablandırır. Burada Müdafiə Nazirliyinə müraciətlər əsasında raport hazırlanır, aidiyyəti üzrə ünvanlanır.

Dövlət qulluqçusu Əzəmət Qəhrəmanova Bakı Dövlət Universitetində bakalavr və magistr təhsili alıb. Əzəmət xanım deyir ki, vətənpərvərlik özünün Vətənin bir parçası olduğunu dərk etməkdir. "Vətənpərvərliyə önəm verən cəmiyyətin, sözsüz ki, gələcəyi də var."

Müsahibim 5 yaşlı oğlu Mikayılın "Azərbaycan" şeirini söyləməsindən danışarkən qürurla "Mən sabahın əsgərini böyüdürəm", - dedi.

Əzəmət xanım bildirdi ki, XX əsrdə işgəncələrə məruz qalan, əsir düşən, Qarabağ müharibəsinin ağrı-acılarını, Xocalı faciəsinin dəhşətlərini unutmayan Azərbaycan qadını bütün dünyaya sülh istəyir. "Lələtəpənin, Bayraqtəpənin timsalında illərdir düşmən əlində əsir olan əzəli torpaqlarımızda üçrəngli bayrağımızın dalğalanması hər birimiz kimi mənim də müqəddəs arzumdur".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Natəvan Məmmədova Bakı Dövlət Universitetini bitirsə də, həmişə forma geyinmək arzusunda olub. O deyir ki, son illər orduda qadınların xidmətə başlaması-na şərait yaradılması hərb sənətini sevən, bu sahədə xidmət etmək arzusunda olan qadınların istəyini gerçəkləşdirdi. "Bu imkan mənim kimi xidmət etmək istəyən xeyli qadını sevindirdi. Respublikamızda istənilən sahədə inkişaf var. Müharibə şəraitində


MAHHXHQ əsgər
Aydan Səfərəliyeva

yaşadığımıza görə Azərbaycan Ordusunun daha da güclənməsi daim diqqət mərkəzindədir. Bu, hər birimizdə ruh yüksəkliyi yaradır."

Vətənə sevgi ilə qulluq edən kiçik çavuş vəzifəsinin sirlərini dərindən öyrənib, işlərini günün tələblərinə uyğun qurur.

Zaqatalada dünyaya göz


MAHHXHQ kiçik çavuş
Natəvan Məmmədova

açan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Zahidət Əliyevanın hərb sənətinə sevgisi sonsuzdur. Uşaqlığı müharibə dövrünə düşən Zahidət xanım sirli-sehirli nağıllarla deyil, 20 Yanvar şəhidliyinə, Xocalı faciəsinə, Qarabağa, Şuşaya həsrətdən yaranmış nağıllarla böyüyüb. Xalqımızın başına gətirilən müsibətlərin canlı şahidi olaraq seçib hərbçi peşəsini. "Hərbi formanı əynimə geyindiyim gün sevincimi bütün sevdiklərimlə, dostlarımla paylaşdım. O anlarda keçirdiyin hissləri sözlə ifadə etmək mümkün deyil. Bunu anlamaq üçün gərək o hissləri yaşayasan".

Həmsöhbətim deyir ki, zəngin, qüvvətli və müstəqil Azərbaycan Ordusu xalqımızın qürurudur. "Aprel döyüşlərində ordumuz lazımi qədər hərbi gücə malik olduğunu sübuta yetirdi".

**(Ardı 5-ci səhifədə)**

# Bayramınız mübarək, əziz qadınlarımız!



MAHHXHQ çavuş
Zahidət Əliyeva

(Əvvəli 1-ci səhifədə)

Gözlərinin anlatdığını, qəlbinin dediklərini və ruhunun pıçıldadıqlarını duyuram onlarla söhbətdə. - Azərbaycan qadını çox güclüdür, - deyirdi bu pıçıltılar. - Doğma torpaqlarımızın bir qisminin işğal altında olduğu bir dövrdə üzərimizə düşən yükü şərəflə daşıyırıq.

* * *

Zəriflik, gözəllik və müqəddəslik simvolu olan qadın adı, ana anlayışı həmişə uca zirvələrdə tutulub. Milli xalq təfəkküründə doğma yurdun, Vətən torpağının ana adı ilə birgə tutulması da təsadüfi deyil. Öz mərdliyi, cəsurluğu və fədakarlığı ilə seçilən Azərbaycan qadını tarixin müxtəlif səhifələrində öz sözünü deyib.

Bu gün ordu sıralarında xidmət edən xanım hərbi qulluqçular vəzifə borclarının öhdəsindən məsuliyyətlə gəlirlər.

Çavuş Günel Cəfərli 1983-cü ildə Beyləqan rayonunda müəllim ailəsində dünyaya göz açıb. Milli Qəhrəman Namiq Allahverdiyevin adını daşıyan 1 nömrəli orta məktəbi bitirib. Hələ orta məktəb illərində Namiq Allahverdiyevin Laçın, Əsgəran, Füzuli, Goranboy rayonları uğrunda gedən döyüşlərdə iştirakını araşdırıb oxuyan gənc qızın hərb sənətinə həvəsi yaranmışdı. Elə bu səbəbdən də 2005-ci ildə hərbçi olmaq istəyilə müvafiq qurumlara müraciət edir. Lakin qadın hərbi qulluqçuların ordu sıralarına qəbul edilmədiyi cavabını alır. Bu cavabdan məyuslanmayan Günel "Hansı sahədə oluramsa olum, Vətənim üçün xeyirli övlad olmalıyam" prinsipi ilə təhsil aldığı məktəbdə İngilis dili müəllimi kimi əmək fəaliyyətinə başlayır.

- Hərbçi ola bilməmişdim, ama savadlı, Vətənə, millətə bağlı şagirdlər yetişdirirdim. Və bununla da Vətənə övladlıq borcumu yerinə yetirdiyimi düşünürdüm, - çavuş Cəfərli deyir.

Ordu sıralarında aparılan son islahatlardan sonra Günel öz arzusunun arxasıyca gedərək müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olaraq taleyini Vətəni qorumağa həsr edir. "Bir də həyata gəlsəydim, yenə də hərbçi olardım, torpaqlarımızın azad olunması üçün fikirləşmədən canımdan keçərdim", - çavuş deyir. - 2 yaşım olanda atamı itirmişəm. Anam həm ata, həm ana olub bizə. Ondan səbrli olmağı, düzgün qərar qəbul etməyi, çətinliyə sinə gərməyi öyrənmişəm. Anamın timsalında mən də qürurlu, iradəli olmağı öyrənmişəm. Necə deyirlər: "Aslanın erkəyi, dişisi olmaz".

- Həyatda ən böyük arzunuz nədir?

- Əksər qadın ana olmaq arzusu ilə yaşayır. Mən bu arzuma çatmışam. Hazırda Türk liseyində oxuyan qızımı gələcəkdə uşaq həkimi görmək istəyirəm. Özümün isə həyat amalıma çevrilən yeganə istəyim zabit olmaqdır. Belə bir deyim də var axı, "general olmaq istəməyən əsgər əsgər deyil".

Hazırda ön xətt hərbi hissələrindən birində xidmət edən xanım hərbi qulluqçumuz çalışdığı sahədə dəqiqlilik və etibarlılığın başlıca meyar olduğunu bildirir. Bu sahənin sirlərini, eləcə də əsl hərbçi kimi davranmağı kapitan Ayxan Allahverdiyevdən öyrəndiyini və ona minnətdar olduğunu qeyd edir.

Həyatını ordu sıralarına bağlayanlardan biri də kiçik çavuş Aynur Suvarovadır.



MAHHXHQ çavuş
Günel Cəfərli

2014-cü ildən Azərbaycan Ordusunda xidmət edir. Astara rayonundan olan Aynur "Vətən uğrunda fədakarlıq göstərmək şərəfdir", deyərək xidmətə yollanıb. Hazırda baş aşpaz vəzifəsində çalışan hərbi qulluqçumuz əsgərlərin dadlı yeməklərlə qidalanması üçün əllərindən gələni etdiklərini bildirir:

- Ordu sıralarına qatılarkən üç övladım vardı. İndi isə gördüyünüz bütün əsgərləri öz oğlum bilirəm. Qida rasionuna uyğun olaraq milli mətbəxin bütün təamlarını hazırlayıb əsgərlərə təqdim edirik. Qoy əsgərlərimiz daha ürəklə xidmət etsinlər. Oğlum Xəyal cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birində xidmət edib. Onu hərbi xidmətə yola salanda hərbi qulluqçuydum. Azərbaycan Ordusunun qüdrətinə bələd, əsgərlərimizə göstərilən diqqət və qayğının şahidi idim. Bu səbəbdən də ürəyim rahat idi.

- Sizcə, Vətən sevgisi nə deməkdir?

- Doğulub boya-başa çatdığın torpağa ürəkdən bağlı olmaq Vətən sevgisidir. Həyatımın geridə qalanını bu sevgiyə, bu xidmətə həsr etməyi özümə borc bilirəm.



MAHHXHQ kiçik çavuş
Aynur Suvarova

Əsgər Gülnisə Şərbətova 1982-ci ildə Astara rayonunda anadan olub. Ziyalı bir ailədə dünyaya göz açan xanım hərbi qulluqçu orta təhsillidir. Atası Sakit kişi dəmir yolunda işləyərək övladlarını Vətənə layiq böyüdüb. Astara rayonu 5 nömrəli orta məktəbdə təhsil alan Gülnisə məktəbə addım atdığı ilk günlərdən xatirəsinə həkk olunan anı heç zaman unutmayacağını bildirir:

- Uşaq çağlarımda dəcəl olmuşam. Məktəb yaşına çatanda artıq hərfləri bilir, rəqəmləri tanıyırdım. Ona görə də məktəbə həvəslə yollanmışdım. İlk gün ibtidai sinif müəllimimiz hər birimizə "böyüyəndə kim olmaq istəyirsən?" sualını verdi. "Əsgər olmaq istəyirəm" deyəndə onun qəribə baxışlarını üzərimdə hiss etdim. Lakin verdiyim cavabın müəllimim tərəfindən bəyənildiyini hiss etdim. Vətənpərvərlik və Vətən sevgisi anlayışının geniş izahını ilk o gün almışdım. Bir gün əsgər olacağıma qərar vermişdim. Qələmlə dəftərə Azərbaycan yazırdım, indi isə torpaqlarımıza qəsd edən mənfur düşmənin qanı ilə bu sözü işğaldan azad edəcəyimiz hər qarış torpağımıza yazmağa hazıram.



MAHHXHQ əsgər
Gülnisə Şərbətova

Gənc ananın ən böyük arzusu övladlarının hərbçi olmasıdır.

* * *

Bu gün cəmiyyətimizin o sahəsi yoxdur ki, orada qadın əməyi görünməsin. Qadın anadır, həm müəllim, həkim, mühəndis, idmançı, həm də hərbçidir. Müsahiblərim Cəmşid Naxçıvanski adına Hərbi Liseyin mülki qulluqçuları Firuzə Əliyeva və Gülnarə Budaqova gələcəyin zabitlərinə xidmət edən peşə sahibləridir.

Firuzə xanım 20 ildən artıqdır ki, kursantların sağlamlığı keşiyindədir. Hərbi liseyin tibb məntəqəsinin həkimi olan xanım hər bir kursantı özünə doğma övladı bilir. Müstəqilliyimizin ilk illərindən ömrünü gələcək Vətən müdafiəçilərinin sağlamlıqlarının qorunmasına həsr edib. Bu gün müxtəlif zabit vəzifələrində xidmət edən yetirmələri ilə fəxr etdiyini deyən Firuzə xanım hərbçi peşəsinin müqəddəsliyindən danışır. "Mən bu günün 16-17 yaşlı kursantlarını sabahın möhkəm, sağlam cüssəli zabitləri kimi görür, onlara daim tibbi tövsiyələrimi verirəm. Onlar tam sağlam olmalıdırlar ki, sabah ağır, çətin şəraitlərdə Vətənə xidmət edəndə çətinlik görməsinlər".



Firuzə Əliyeva

Firuzə xanım ana nəvazişini doğma övladı qədər əziz bildiyi kursantlardan heç zaman əsirgəməyib. Deyir ki, kursantlardan kimsə xəstələnəndə narahatlıq keçirir. Fikri qalır onların yanında. Evdə olanda da zəng edib maraqlanır, soruşur, nə etmək lazım gəldiyini növbətçiyə tapşırır.

- Axı o uşaqların anaları yanlarında deyil. Buna görə də onlardan ana qayğısını, ana nəvazişini heç zaman əsirgəmirəm, - Firuzə xanım deyir.

Hippokrat andına sadiq, olduqca məsuliyyətli, işini sevən Firuzə həkim Azərbaycan Tibb Universitetini bitirib. Hərbi liseyə qədər dövlət xəstəxanalarında çalışıb və böyük təcrübə qazanıb.

İkinci həmsöhbətim Gülnarə Budaqova isə 18 ildir ki, liseydə biologiya fənnini tədris edir. Vaxtilə dərs dediyi məzunlar Azərbaycan Ordusunun müxtəlif qoşun növlərində xidmət edirlər. Məzunlarının xoş sədalarını eşitdikcə ürəyi sevinclə dolur, qürur hissi keçirir. "Biz həm müəllim, həm də anayıq. Kursantlardan ana kimi qayğımızı da əsirgəmirik. Aprel döyüşlərində yetirmələrimiz də iştirak ediblər. Bəziləri hospitalda müalicə alırdı. Yığışıb onlara baş çəkdik. Ömrümüzü gələcəyin zabitlərinin təlim-tərbiyəsinə həsr etmişik. İstəyirik ki, onlar gələcəkdə zəngin dünyagörüşünə malik bilikli, savadlı olsunlar".



Gülnarə Budaqova

Gülnarə xanımın peşəsinin məsuliyyəti ailədən qaynaqlanır. O deyir ki, atası uzun illər keçmiş Sovet ordusunun yüksək rütbəli zabitlərindən olub. Hərbi mühitdə böyüyüb. Ona görə də hərbi sahədə çalışmağı çox sevir.

* * *

Hərbi Dəniz Qüvvələrində 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə "Azərbaycan qadınının tarixdə rolu və cəmiyyətdə yeri" mövzusunda tədbir keçirilib.

I dərəcəli kapitan Natiq Bağırov tədbiri açıq elan edərək, bayram münasibəti ilə qadınları təbrik edib, Beynəlxalq Qadınlar Gününün yaranma tarixindən, onun əhəmiyyətindən danışıb. O, Azərbaycan qadınının cəmiyyətdə yeri, nüfuzu barədə çox uca olmasından söz açıb: "Ölkəmizdə qadınların ictimai-siyasi fəallığı ilbəil artır. Azərbaycan qadını ölkəmizi bütün dünyada ləyaqətlə təmsil edir, mötəbər kürsülərdə çıxış edir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın dövlətimiz, dövlətçiliyimiz naminə, xalqın rifahı üçün gördüyü işlər, xeyirxah əməllər bu gün Azərbaycan qadınının nə qədər fəal olduğunu təsdiq edir."

Natiq Bağırov çıxışını ümummilli liderimiz Heydər Əliyevin 8 Mart - Beynəlxalq Qadınlar Günü ilə bağlı sözləri ilə bitirib. "Bu bayram, doğrudan da, bizim bütün bayramlar içərisində ən gözəl bayramdır. Çünki bu qadınlara həsr olunubdur. İnsan cəmiyyətində qadının rolu, əhəmiyyəti məlumdur. Qısaca onu demək olar ki, qadınsız insan yoxdur, qadınsız həyat yoxdur. Qadınlar cəmiyyətdə, həyatda göstərdikləri bütün başqa xidmətlərlə yanaşı, ona görə ən yüksək qiymətə layiqdirlər ki, onlar anadırlar...".

**"Azərbaycan Ordusu"**

# Hərbi hissədə qələbə ovqatı var...



Çoxəsrlik dövlətçilik və ordu quruculuğu ənənələrinə malik Azərbaycan xalqı bunu bu gün də davam etdirərək dövlətçiliyini möhkəmlədir, ordu quruculuğunu inkişaf etdirir. Müstəqilliyin ilk illərində böyük sarsıntılarla, xarici qüvvələrin təzyiqi və erməni təcavüzü ilə üzləşən dövlətimiz müəyyən mərhələlərlə ordusunu yaratdı, ordunun formalaşması yolunda mühüm addımlar atdı. Yaranmasının 26-cı ildönümünü qeyd edən "N" hərbi hissəsinin fəaliyyəti məhz buna bariz nümunədir.

Hərbi hissə yarandığı ilk gündən qarşısında qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlmiş, döyüş və ictimai-siyasi hazırlıqda, hərbi intizamın möhkəmləndirilməsində uğurlar qazanmışdır. Onun şanlı döyüş yolu təlatümlü olsa da, haqqında fəxrlə danışa biləcəyimiz tarixçəsi var. Yaradıldıqdan az sonra cəbhəyə göndərilən hərbi hissə Füzuli rayonunun müdafiəsində ordumuzun əsas zərbə qüvvəsi kimi fəaliyyət göstərmişdir. Qırmızı Bazar, Məlikcan, Şişqaya, Uryandağ, Qızılqaya, Qacar və s. döyüşlərində əlindən gələni etmişdir. Şəhidlərinin, qazilərinin, qəhrəmanlarının şücaəti ilə Azərbaycan hərbçisinin işğalla barışmayacağını təsdiqləmiş, hər dəfə toparlanaraq yenidən cəbhəyə atılmış, düşməni sarsıtmışdır.

Xalqın təkidli tələbiylə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlişi, az vaxtda xalqı birləşdirməsi, dövləti səfərbər etməsi, ordu quruculuğunu yeni istiqamətə yönəltməsi bu hərbi hissənin də xidmət yolunda yeni səhifələr açmışdır. Böyük ruh yüksəkliyi ilə torpaqlarımızın azad edilməsi kimi müqəddəs işə qoşulan hərbi hissə yeni döyüş uğurları əldə edərək az vaxtda Füzuli rayonunun Yuxarı Kürdmahmudlu, Babı, Arayatlı, Mollaməhərrəmli, Əhmədalılar, Qazaxlar, Şükürbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Cocuq Mərcanlı və s. yaşayış məntəqələrini düşməndən azad etmişdir. Hərbi hissə 2016-cı ilin aprel döyüşlərində də düşmən



təxribatının qarşısının alınmasında yaxından iştirak etmiş, mühüm əhəmiyyətli yüksəkliklərin ermənilərdən təmizlənməsində qətiyyətlə döyüşmüşdür. Döyüş əməliyyatları zamanı hərbi hissənin bir sıra hərbi qulluqçusu fəxri adla, orden və medalla təltif olunmuşdur.

Ordu quruculuğunun Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən prioritet elan olunması və bunun məntiqi davamı kimi orduya qayğının ilbəil artırması müdafiə qüdrətimizi daim gücləndirməkdədir. Bu gün ordumuz Cənubi Qafqazın ən güclü ordusudur.

Ordumuzun tərkib hissəsi kimi hərbi hissəmiz də daim döyüş hazırlığını artırmaq əzmindədir. Şəxsi heyətin inamının, döyüş məharətinin formalaşması üçün mühüm işlər görülür, yüksək döyüş hazırlığının və döyüş qabiliyyətinin təmin olunması, hərbi intizamın möhkəmləndirilməsi, silaha və döyüş texnikasına bacarıqla yiyələnməsi, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl işlər aparılmaqdadır. Bunun sayəsində şəxsi heyət Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hər bir əmrini yerinə yetirməyə hər an hazırdır.

Hərbi hissədə qələbə ovqatı var...

**Polkovnik-leytenant**
**Zakir HÜSEYNOV,**
**"N" hərbi hissəsi**

# Bu ruhun zərrəsi olmaq da səadətdi, Vətən!..

**(Əvvəli 3-cü səhifədə)**

Əsgər atasının belə möhtəşəmliklə keçən tədbirdə dediklərini digər eşidənlər kimi mən də bütün əsgər atalarının inamı bilirəm...

Təbiətdə qışdı, könüllərdə yaz. Mətləblər çözələndikcə Vətən kəlməsi "Qəhrəman Tərtərin müdafiəsində" kitabının, kitab düşüncələrin epiqrafına dönür və onun hərarəti vurnuxan ayazı sındırır.

Abdulla Qurbani kitabın ilk nüsxələrini təqdim etmək üçün "N" hərbi hissəsinin keçmiş döyüşçülərini, birliyin, hərbi hissənin komandirlərini, bu hərbi hissənin 2016-cı ilin aprel döyüşlərində iştirak etmiş bir neçə zabitini səhnə görkəmi verilmiş meydana dəvət edir.

Hissə komandirinin və rayon icra başçısının bir-birinə kitab təqdim etməsi də duyğusal rəmz kimi yaşanılır: xalq ordunun, ordu xalqın dayağıdı. "Bu məqam ordu - ictimaiyyət münasibətlərinin səviyyəsinin göstəricisidi..." - düşünürəm. Hərbi hissənin tərxis olunmuş zabitləri, keçmiş döyüşçüləri kitabı bağrına basır; Tərtərin dünənini yaşadır bu kitab, hərbi hissənin döyüş yolunun kitabıdı, şəhidlərin ruhunun bu günün əsgərlərinə vəsiyyəti-nəsihəti kitabıdı, illərin o üzündə qalan ayların, günlərin döyüşlərini yaşadan kitabdı - ölməzlərə ehtiramın kitabıdı...

Pənah kitabı şəhid əsgərlərinin əvəzinə bağrına basıb - qəhəri də sezilir, ürək sevinci də...

...Yaz ovqatlı könüllərin havası da "Vətən!" - deyir, anaların baxışının alğışı da, duası da, ovunmayan nəvəsi da "Vətən!" - deyir, bu millətin əsrlərin o üzündən gələn səsi, qılınc-qılınc boy göstərən qələbəsi, dövlətçilik təntənəsi "Vətən!" - deyir, 2016-cı ilin aprel döyüşlərinin harayçısı olan bir "Qarabağ şikəstəsi"



"Vətən!" - deyir. Bu möhtəşəm tədbir iştirakçıları kəlmə-kəlmə Vətənləşdirir...

Hazırda Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun bu hərbi hissədə hərbi nizam-intizam yaratdığını, təlimlərdə və məşğələlərdə şəxsən iştirak etdiyini, Levonarx əməliyyatını şəxsən hazırladığını,... xatırladan bu kitab neçə-neçə Rəşidlərin xatirələrinin söykəndiyi kitabdı:

1992-ci ilin yayın əvvəllərində Knyaz Aslanla III sovxozun ərazisində minalanmış sahəyə düşəndə yaşadığım anların, Tərtərdən Ağdərəyəcən yollar boyunca gördüklərimin ürək sıxıntılarını yenidən yaşadan, unudulmağa qoymayan kitabdı; tədbirdən sonra hamının "Qəhrəman Tərtərin müdafiəsində" kitabı tarixin kitabıdı - təəssüratıyla qayıdacağına zərrəcə şübhəm yoxdu...

Abdulla Qurbani hərbi hissənin şəhidlərindən söz açanda Qarabağ müharibəsi əlili Nizami Heydərovun həmişə kövrəkliklə dediyi bir beyti xatırlayıram: Şəhidlərin ruhu haqqı bu qan yerdə qalmayacaq! Xatırlayıram və "Qəhrəman Tərtərin müdafiəsində" kitabının işığında anaların, bacıların, indi ata olan, ana olan şəhid balalarının ürəyindən keçənləri görürəm.

Düşüncələrimi bürüyən işığın fonunda bir mətləbi apaydın oxuya bilirəm: "...Tərtər var, Vətən var...". Bu günümüzə "Qəhrəman Tərtərin müdafiəsində"dən baxanların düşüncələrində düşüncələrimin eynini görürəm və bayaqdan bəri neçə dəfə pıçıldadığım bir fikri yenə təkrarlayıram, Azərbaycan əsgərinin adından təkrarlayıram: "Bu ruhun zərrəsi olmaq da səadətdi, Vətən!". Təkrarlayıram və əsgərlərimizə baxıram. Baxışlar deyir ki, "İli ömür eləyən Vətənə xidmətdi, Vətən!". "Bu munis anları Cıdır düzündə yaşayacağımız günə az qalıb!" - mənə elə gəlir ki, Vəzirin, Elmanın, Kazımağanın, tərtərlilərin də tərtərli qədərincə sevdikləri Yusifin də ruhunun səsini eşidirəm; "Qəhrəman Tərtərin müdafiəsində" kitabı həm də uca ruhların xeyir-duası kimi oxunacaq...

"Qəhrəman Tərtərin müdafiəsində" kitabında salnamə çaları aydınlığıyla görünür. Bu salnaməni yaradanların əhatəsində yeni-yeni salnamələr yaradacaq əsgərlərin hansıyla həmsöhbət olsam, eşidəcəyim kəlmələrin qətiyyətini də cəsarətlə bu kitaba ad edirəm: torpaqlarımız işğaldan azad ediləcək! Biz azad edəcəyik! Tədbirin sonunda kimliyini öyrənmək istədiyim əsgərin dediklərində Cıdır düzündə üzməyə əlim gəlməyəcəyi çiçəyin ətrini duyuram: Azərbaycan əsgəriyəm!..

Bu kitabın təqdimatı, Abdulla Qurbaninin təəbirincə desək, Tərtərin timsalında Vətəni sevənlərə Tərtərin, Tərtərin timsalında Vətənin sevgisi kimi təqdim olunur, Tərtərə, deməli, Vətənə sevgi kimi yaşadılacaq.

Bu kitab həm də düşmənlərin gizlətmək istədikləri hadisələrin sirr pərdəsini götürən kitabdı: Ermənistan-Azərbaycan sərhədlərində, Malıbəylidə, Quşçularda, Qaradağlıda, Fərruxda,... qətllər törədən, tərkibi, əsasən, Livandan, Fransadan, Fələstindən gələn muzdlu ermənilərdən ibarət olan "Arabo" batalyonu Tərtərdə son nəfərinədək - təxminən 160 nəfər - məhv edildi, Ermənistan uzun illər bu faktı gizlətməyə çalışdı...

Kitab həm də "xırda budaqların üstündə oturub böyük budaqları silkələmək istəyənlərin" (H.Baxış) məğlub olacağına zəmanətin bədii (həm də real!) təsdiqi kitabıdı...

Düşüncələrimi vərəqlədikcə kövrəldiyim, kövrəklik içində qürurlandığım kitabdan üzülmür; "Qəhrəman Tərtərin müdafiəsində"nin cazibəsindən ayrılmaq çətindi. Bu cazibə sevgidi, ehtiramdı, dünənlə bu gün, bu günlə sabahlar arasında söz körpüsüdü. Bu söz "N" hərbi hissəsinin yaranması gününün könül xoşluğunu bir inamın qətiyyətiylə tamamlayır: torpaqlarımız işğaldan azad ediləcək, tədbiri gözlərinə, gözlərindən ürəyinə köçürən yeniyetmələr o ərazilərdə xidmət edəcək, belə kitablar o ərazilərdən yazılacaq, həm də Niyazi Qurbanovun, Niyazilərin istəyi məzmununda. Hamı bu murazı, bu niyyəti, bu murazın, bu niyyətin səyyarəsi olan qətiyyəti Azərbaycan əsgərinin qələbə uğuruna aydınlıq suyu bilir...

...Bu ruhun zərrəsi olmaq da səadətdi, Vətən. İli ömür eləmək Vətənə xidmət olduğu üçün səadətdi. "Qəhrəman Tərtərin müdafiəsində" kitabı deyir ki, Vətənə xidməti səadət bilənlər bizi Şuşaya, Laçına, Kəlbəcərə, Ağdama, Füzuliyə, Cəbrayıla, Qubadlıya, Zəngilana aparacaq, bu yolları nurlandıracaq səadət hamımızın ümumi səadətimizdi - Vətənin səadətidi...

Ötən il Horadizdə keçirilmiş kütləvi vətənpərvərlik tədbirini xatırlayıram: "Qarabağa yaz gələcək!". Arzuladığımız yazın aprel ovqatlı əlamətləri görünür...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# "Dünyanı gözəllik xilas edəcək"

Dərin mənaları əks etdirən "Dünyanı gözəllik xilas edəcək" - fikrini xatırlayıram. Gözəllik sadəcə xarici görkəm deyil. Daxili saflıq, xoş niyyət və xasiyyət əvəzsiz gözəlliklərdəndir. Qadınlar yer üzünə bəxş olunmuş ən üstün varlıqlardır. Nə qədər zərif görsənsələr də, bir o qədər güclü və dözümlüdürlər.

Hərbçi qadınlar da məhz belədir. Onlar bu peşənin çətinliyindən qorxmamış və əsl Azərbaycan qadınına xas bir şəkildə öz şücaətlərini nümayiş etdirmişlər, etdirirlər. Qadınlar Silahlı Qüvvələrdə tədris, tibb, kadr, kargüzarlıq, arxa cəbhə, kəşfiyyat və digər sahələrdə hərbi xidmətdədilər. Hazırda Silahlı Qüvvələrdə baş zabit hərbi rütbələrinə kimi yüksələ bilən qadın hərbi qulluqçular xidmət edir. Ağıllı bir qadın xəzinədir, ağıllı və gözəl qadın gücdür. Vətənimizdə ana və torpaq müqəddəs varlıq kimi bir tutulmuşdur. İstər hərbçi, istərsə də mülki qadınlar şəraitlərindən asılı olmayaraq daim diqqət və qayğıyla əhatələnirlər.

Ən mühüm təşkilatlarda, ən möhtəbər toplantılarda belə qadınlar kişilərlə bir sıradadır. Salatın Əsgərovanı necə xatırlamayasan? Vətəninin qorxmaz əsgəri olan, onun dərdinə yanan, Vətənə daha yaxın olmaq üçün səngərdə əsgərlərlə çiyin-çiyinə xidmət edən, şəhid olan Salatın Əsgərovanı. Onun həyat amalı özündən sonra gələn gənc nəsil üçün örnək oldu. Bizim tarix boyu mərd və şücaətli qəhrəman qadınlarımız çox olub... Mərd olduğu qədər də öz ağılları ilə böyük şahları heyrətləndiriblər. Fitnə, Nüşabə, Sara xatın...

Sadəcə 8 Mart günü deyil, elə hər gün qadınlar üçün bayram olmalıdır. Çünki məhz analar sabahın güclü Azərbaycan əsgərinin anasıdır!

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun I kurs tələbəsi**

*Ovqat*

# Analara hədiyyə



1991-ci ilin martın əvvəllərində Füzulidə ezamiyyətdəydim. Rayon hərbi komissarının müavini mayor Rasim İbrahimovun müşayiətilə Qaradağlı kəndindəydik. Demişdilər ki, ermənilər kəndi müntəzəm artilleriya atəşinə tuturlar. Onu da demişdilər ki, bu kənddə şəhid olanlar, - vəfat edənlər ancaq gecələr dəfn olunurlar. Erməni xisləti mərhumların dəfnini də əngəlləyir. Yadıma "Yeddi oğul istərəm" filmindən bir epizod düşmüşdü: qəbiristanlıqda Bəxtiyarın dediklərini hər cür qarşıdurmadan, düşmənçilikdən də ucalıqlarda dayanan milli ucalıq kimi bir daha xatırlamışdım: "Qoyun ölülərini dəfn etsinlər. Sonra..."

Müharibənin, müharibəaparmanın özünəməxsus qanunları var. Bütün müharibələrdə dinc əhaliyə güllə atan tərəf qınanıb. Haaqa məhkəməsində alman-faşist işğalçılarına elan edilən ittihamlardan biri də əhaliyə işgəncələr verilməsiydi, öldürülməsiydi. Faktlar, hadisələr təsdiqləyir ki, ermənilik elə faşizm deməkdir.

Bu düşüncələrin cazibəsindəykən bir ağsaqqalın təsəllisinə sığınmışdıq:

- Qəddarlıqdı, insanlıq deyil. Qəddarlığın mənzili gödək olur. Bu oğullar ata yurdunu, kəndi, deməli, Vətəni qoruyur. "Gec edər, güc edər, a bala..."....

Səngərlərin o üzünü gözdən qoymayan əsgərlərin baxışları o qədər doğma, o qədər qətiyyətliydi ki...

Ağsaqqal köks ötürüb bizə, sonra qarşı tərəfə baxmışdı...

- Gec etməyəcək, ay dayı, həm də o güc düşmənin belini qıracaq! - az sonra öyrənəcəkdim ki, adı Vüqardı. Söhbətləşmişdik. "Bir-iki gündən sonra qadınlar bayramıdı. Ananı, bacını necə təbrik etmək istərdin?" - soruşmuşdum. Anı olaraq duruxmuşdu. "Özümü biləli anamı da, bacımı da təbrik etmişəm. Anam məni bağrına basıb "Aldığın "beş"lər mənə ən gözəl hədiyyədi", - deyərdi. O vaxtdan illər keçib. İndi döyüşçüyəm. Könüllü gəlmişəm. Anamı da, bacımı da, bütün bacıları da erməni şərini-xatasını sovuşdurmaqla təbrik etmək arzusundayam. Niyyətimiz ermənilərin murazını gözündə qoymaqdı! Bu, analarımıza, bacılarımıza, ən gərəkli, ən dəyərli bayram hədiyyəsi olacaq", - Vüqarın səsində hiss etdiyim qətiyyət səngərlərə sığmırdı, səngərin o üzünə meyillənirdi... Hamı bu uca niyyətin istisində isinmişdi. Ağacların xırdaca budaqlarında titrəşən yarpaqlara sığal çəkən meh o qədər munisiydi ki!..

Füzuli işğal olunanda Rasim İbrahimov da şəhid oldu, Vüqar da.

1993-cü ilin qışında Murovdağdaydım. Qurban Qurbanovla, Bəhram Ləzimovla söhbətləşirdik. Vüqarı xatırlamışdım, onun niyyətini xatırlatmışdım. İkisi də duyğulanmışdı, ikisinin də barmaqları avtomatın qundağını sıxmışdı. Bəhram "Vüqarın niyyətini bu əsgərlər gerçəkləşdirəcək!.." - demişdi. O, qürurla əsgərlərə baxmışdı, mən - Bəhrama...

Kəlbəcər tərəfdən yel əsirdi. Bu çılğın mehi torpağın harayı bilmişdik, bu harayı Vüqarın niyyətinin carçısı...

...Bu yaxınlarda ezamiyyətdə söhbətləşdiyim əsgərlərdən biri o vaxtlar Füzulidə Vüqardan eşitdiyim mətləbin eynini dedi. "Milli ruh döyüşçü ruhudu. Yaşadılır, yaşayır..." - düşündüm və Azərbaycan əsgərinin dünyaduyumunu ruhumuzun səyyarəsi bildim. Mənə elə gəldi ki, şəhidlərimizin ruhları "Haqlısan..." - deyir...

O niyyət-hədiyyəni Vüqarın bütün şəhidlərimizin anasına, bacısına bu günün əsgərləri yetirəcək. Böyük Qələbə analara ən dəyərli, ən gərəkli hədiyyə olacaq, Azərbaycan əsgəri! Əsgər Nazim Cabbarov, sən də onların sırasında olacaqsan! O hədiyyəni siz verəcəksiniz! Həm öz adınızdan, həm də şəhidlərimizin ruhu adından! Hansı gün versəniz, analar o günü daha əziz bayram biləcək! O bayramın ovqatı əbədiyyən yaşadılacaq.

*Səsimizə köklənəcək*
*Yerin səsi, göyün səsi*
*Qələbədi oğulların*
*Analara hədiyyəsi!..*

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# "Ehtiyat zabit hazırlığı kursu"nda buraxılış imtahanları keçirilib



Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Ehtiyat zabit hazırlığı kursu"nda iştirak edən şəxsi heyətin buraxılış imtahanı keçirilib.

Müdafiə Nazirliyinin nümayəndələrinin iştirakı ilə keçirilən imtahanlarda kursantlardan fiziki hazırlıq üzrə məqbullar qəbul edilib, onların nəzəri bilikləri yoxlanılıb və müxtəlif çaplı silahlardan atış normativləri yerinə yetirilib.



# Xəbərlər: hadisələr, faktlar

## Çin hərbi büdcəsini 8,1 faiz artırır



Çin cari ildə ölkənin müdafiə xərcləri üçün nəzərdə tutulan büdcəsini ötən illə müqayisədə 8,1 faiz artıracaq.

Bu barədə Çin Dövlət Şurasının sədri (Baş nazir) Li Keçyan bu gün Pekində işə başlayan 13-cü çağırış Ümumçin Xalq Nümayəndələri Yığıncağının (ÜXNY) ilk sessiyasında hökumətin hesabatını təqdim edərkən deyib.

Çin hökuməti 2018-ci il üçün müdafiə büdcəsini 1,11 trilyon yuan (175 milyard ABŞ dolları) səviyyəsində müəyyənləşdirib. Cari il üçün nəzərdə tutulan 8,1 faizlik artım əvvəlki iki ildəki tempi də (müvafiq olaraq 7,6 və 7 faiz) üstələyir. Dövlət Şurasının sədri sessiyada çıxışı zamanı 2015-ci ildən bəri Çin Xalq Azadlıq Ordusunda həyata keçirilən islahatlar nəticəsində silahlı qüvvələrin şəxsi heyətinin sayının 300 min nəfər azaldıldığını da bəyan edib.

## Türkiyədə saxlanılan İŞİD üzvlərindən xeyli sayda silah götürülüb



Türkiyənin Suriya ilə sərhədində yerləşən Şanlıurfa bölgəsinin Akçakale rayonunda saxlanılan 3 əcnəbi vətəndaşdan 69 ədəd tapança götürülüb.

Ölkənin təhlükəsizlik qüvvələrinin həyata keçirdiyi əməliyyat nəticəsində saxlanılan şəxslərin İŞİD terror qruplaşmasının üzvləri olduğu müəyyənləşib.

Məlum olub ki, terrorçular Türkiyə ərazisinə qeyri-qanuni yolla keçiblər.

## Misir hərbçiləri Sinay yarımadasının şimalında 10 terrorçunu məhv ediblər



Misir ordusunun son iki gün ərzində Sinay yarımadasının şimalında və mərkəzi hissəsində keçirdiyi "Sinay - 2018" antiterror əməliyyatı nəticəsində 10 terrorçu zərərsizləşdirilib. Həmçinin ekstremist fəaliyyətdə şübhəli bilinən 250 nəfər saxlanılıb.

Misir silahlı qüvvələrinin bununla bağlı bəyanatında hərbçilərin partlayıcı qurğuları, silah anbarlarını və terrorçuların sığınacaqlarını məhv etdikləri bildirilir. Bundan başqa, gizli yeraltı yanacaq anbarı da aşkarlanaraq partladılıb. Misir hərbçiləri Liviya sərhədindən ölkənin ərazisinə qeyri qanuni yolla keçməyə cəhd göstərən silahla dolu 11 avtomaşını da məhv ediblər.

Son günlər ərzində antiterror əməliyyatı nəticəsində hərbçilərdən dördü ölüb, dördü isə yaralanıb.

Xatırladaq ki, "Sinay - 2018" antiterror əməliyyatına fevralın 9-dan başlanılıb. Bu müddət ərzində Misir ordusu yarımadada 100-ə yaxın ekstremisti zərərsizləşdirib.

## "Zeytun budağı" əməliyyatında zərərsizləşdirilən terrorçuların sayı 2612-yə çatıb



Türkiyə Silahlı Qüvvələrinin PKK, KCK, PYD-YPG və İŞİD terror qruplaşmalarının üzvlərinə qarşı Suriyanın Afrin bölgəsində apardığı əməliyyat nəticəsində öldürülən terrorçuların sayı 2612-yə çatıb.

Bu barədə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahı açıqlama yayıb. Türkiyə Silahlı Qüvvələrinin yanvarın 20-dən başladığı "Zeytun budağı" əməliyyatının məqsədi qardaş ölkə üçün təhdid yaradan PKK, KCK, PYD-YPG və İŞİD terror qruplaşmalarını bölgədən uzaqlaşdırmaq, sərhəd xəttinin və həmin ərazilərdə yaşayan əhalinin təhlükəsizliyini təmin etməkdir.

**AZƏRTAC-ın materialları əsasında**

# "Asan könüllülər" hərbi hissədə olublar





*"Asan könüllülər" təşkilatı "Mədəniyyət carçıları" "Əsgərə məktub" layihəsi çərçivəsində "N" hərbi hissəsində olublar.*

"Əsgərə məktub" layihəsi çərçivəsində Bakı şəhəri Asan xidmət 1 və Bərdə şəhəri Asan xidmət könüllüləri, "Asan könüllüləri" təşkilatının üzvləri, "Mədəniyyət carçıları" proqramının nümayəndələri hərbi hissə ilə tanış olublar. Ekskursiya çərçivəsində qonaqlar əsgər yeməkxana-camaşırxana kompleksinə, kazarmalara baxıblar. Hərbi qulluqçuların necə qidalanması, yeməklərin hazırlanması, asudə vaxtın necə təşkil olunması ilə maraqlanıblar. Müasir standartlara cavab verən ideoloji otaq, idman alətləri ilə təmin olunmuş zal gənclərin diqqətini çəkib.

Ekskursiyadan sonra "Asan könüllülər" təşkilatının "Mədəniyyət carçıları" konsert proqramı ilə əsgərlərin qarşılarına çıxıblar. Mərasimi giriş sözü ilə açan polkovnik-leytenant Elşən Vəliyev qonaqları salamlayıb: "Əsgərə məktub" layihəsi alqışa layiqdir. Biz bu məktublarla xalqımızın bizə necə inandığını, güvəndiyini hiss edirik. Azərbaycan hərbçisi olaraq ciyinimizdə daşıdığımız bu yükün məsuliyyətini anlayırıq. İşğal altında olan torpaqlarımızı qısa zamanda azad edəcəyimizə əminik", - deyə fikrini yekunlaşdırıb.

Kapitan Azad Cəfərov və əsgər Azər Həsənov da çıxışlarında bu missiyanın gərəkliyindən danışıblar. Məktəblilərin və tələbələrin əsgərlərə yazdığı məktublar paylanılıb.

Polkovnik-leytenant Elşən Vəliyev ünvan yazılmış məktublara əsgərlər tərəfindən cavab yazılacağını bildirib.

**Əsgər**
**Xəyal İBRAHİMZADƏ,**
**"N" hərbi hissəsi,**
**fotolar**
**əsgər**
**Aslan KAMAYEVİNDİR**

# Ermənistan ordusunda kriminal hadisələr

Ermənistan ordusunun milliyyətcə yezidi kürd olan hərbi qulluqçusu xidmət yoldaşları tərəfindən döyülüb. Hadisə işğalçı ordunun Ağdərə yaşayış məntəqəsində yerləşdirilmiş 6-cı alayın bölmələrindən birində baş verib.

İnsidentdə Volodya Hunayanın adı hallandığından faktla bağlı istintaq davam edir. Kürd əsilli hərbi qulluqçunun aldığı xəsarətlər barədə ekspertiza rəyi veriləcək.

Hadisə ictimaiyyətdən gizlədilsə də, hərbçinin ailəsi bundan xəbər tutub və əgər məsələ ört-basdır edilərsə, yuxarı instansiyalara şikayət edəcəklərini bildiriblər.

* * *

İşğal edilmiş Cəbrayıl rayonu ərazisində yerləşdirilən düşmən ordusunda xidmət edən hərbi qulluqçular arasında kütləvi dava baş verib. Yerlibazlıq zəminində baş verən hadisə zamanı bir neçə nəfərin müxtəlif zədələr aldığı məlum olub. Biabırçı qalmaqal barədə məlumatın daha da böyüməməsi məqsədilə insidentin səbəbləri yerli hərbi polis tərəfindən araşdırılır.

İlkin məlumata əsasən, davanın ən fəal üzvləri olan hərbi qulluqçular Armen Sarqsyan, Armen Hovsepyan və Harutyun Torosyan həbs edilib. Araşdırma davam edir.

* * *

Nizamnamədən kənar münasibətə görə 2 erməni hərbçisi cinayət məsuliyyətinə cəlb olunub. Eyni taborda xidmət edən müqavilələli hərbi qulluqçular Samvel Cahangiryan və Sasun Danielyan arasında sonradan davaya çevrilən mübahisə baş verib.

Hadisənin araşdırılması məqsədilə onların hər ikisi hərbi polis idarəsinə çağırılıb. İnsident zamanı xəsarət alan Sasun Danielyan izahatında guya hamamda yıxılaraq xəsarət aldığını bildirib. Komandanlığın "xahişi" ilə hərbi polis hadisəni ört-basdır etməyə razılıq verib.

* * *

Ermənistan ordusundakı acınacaqlı vəziyyətdən bezən daha bir əsgər xidmətdən yayınmaq üçün özünə qəsd edib. İşğal edilmiş Əsgəran yaşayış məntəqəsində yerləşdirilmiş düşmən ordusunun bölmələrindən birinin əsgəri Qaqiq Mehrabyan axşam saatlarında odlu silahdan atəş açmaqla özünü ayağından yaralayıb.

Xankəndi şəhərində hərbi hospitala yerləşdirilən əsgərin vəziyyəti normaldır. Ermənistanın Masis rayonundan çağırılan əsgərlə hadisəni araşdırmağa gəlmiş müstəntiq söhbət edib.

Hadisəni ört-basdır etməyə çalışan komandanlığın razılığına əsasən, baş vermiş qanlı insidentlə bağlı cinayət işi açılmayıb. Sosial şəbəkədə hadisə barədə məlumat yayılsa da, rəsmi məlumat verilməyib.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*Hərbi texnikalar, silahlar*

# "Gürzə" patrul maşını



Müdafiə Sənayesi Nazirliyinin təcrübə-sınaq zavodunun mühəndisləri tərəfindən 2012-ci ildə Toyota HILUX 12 modelinin bazası əsasında xüsusi təyinatlı qüvvələr və güc strukturları üçün "Gürzə" patrul maşını hazırlanıb, istismara verilib. 2013-cü ildə Türkiyənin İstanbul şəhərində keçirilən "İDEF-2013" sərgisində nümayiş olunub. Müasir döyüş maşınıyla 2500 kiloqrama qədər yük daşımaq olar. Patrul maşını 114 at gücündə mühərriklə təchiz edilib. Silahlanmasına bir ədəd 12,7 mm-lik, iki ədəd 7,62 mm çaplı pulemyotlar daxildir. Bundan başqa "Gürzə" maşınının silahlanmasına əlavə olaraq avtomatik qumbaraatan və digər döyüş sursatları da daxil etmək olar. O, müxtəlif maneələrdən keçmə qabiliyyətinə malikdir. Heyəti komandir və sürücü daxil olmaqla beş nəfərdən ibarətdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi fevralda hərbi hissələrdə 20-dən artıq tədbir və layihə keçirib

Müdafiə Nazirliyi fevralda müxtəlif mövzularda 20-dən artıq tədbir və layihə həyata keçirib. Qurum bu tədbirləri Gənclər və İdman, Mədəniyyət və Turizm nazirlikləri, Azərbaycan Milli Elmlər Akademiyası, Respublika Hərbi Prokurorluğu, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı, "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyi, "Sağlam Ailə" Ailələrin Maarifləndirmə İctimai Birliyi və Azərbaycan Skautlar Assosiasiyası ilə birgə hərbi hissələrdə təşkil edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirlər əsasən Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qusar, Qazax, Şəmkir və Gəncədə keçirilib.

Gənclər Günü, hərbi hissələrin yaradılmasının ildönümləri, Xocalı şəhidlərinin anım mərasimləri, eləcə də digər tədbirlərlə əlaqədar cəbhəboyu zonada yerləşən hərbi hissələr, o cümlədən xüsusi təyinatlı hərbi təhsil müəssisələrində şəxsi heyətlə keçirilən görüşlərdə deputatlar, yerli ictimaiyyətin nümayəndələri, veteranlar, tələbələr yaxından iştirak ediblər.

Kütləvi informasiya vasitələrində dərc olunması məqsədilə fevralda Müdafiə Nazirliyi tərəfindən 92 rəsmi məlumat, 60 foto və 8 videomaterial hazırlanıb, eləcə də media nümayəndələrinin 5 suallı cavablandırılıb.

Yerli televiziya kanallarına cəbhəboyu zonada yerləşən hərbi hissələrdə çəkilişlər aparılması üçün 2 icazə məktubu verilib. Bundan əlavə, "TRT World" televiziya kanalının nümayəndələri də Müdafiə Nazirliyində akkreditə olunaraq cəbhə xəttində yerləşən bölmələrdə çəkilişlər aparıblar.

Hesabat dövründə Müdafiə Nazirliyi tərəfindən müxtəlif bölgələrdə təşkil olunan 6 tədbirdə də televiziya kanalları və informasiya agentliklərinin nümayəndələri iştirak ediblər.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 80
Nüsxə 3510